# İranın daha bir casus şəbəkəsi zərərsizləşdirildi

## Səfirliyimizdə həyata keçirilən silahlı terror indiyə kimi İranın ölkəmizə qarşı etdiyi mənəvi terrorun davamıdır

Yanvarın 27- də Azərbaycanın İran-dakı səfirliyində bu ölkənin xüsusi xidmət orqanları tərəfindən hazırlan-mış terror törədildi. Bu terror aktı Azərbaycanın müstəqillik qazanandan sonra İranın ölkəmizə qarşı apardığı məkrli siyasətinin məntiqi davamıdır.

İran həmişə ölkəmizə qarşı qərəzli, məkrli olub. Üzdə özünü dost göstərsə də, arxada düşmənçilik edib. Üzərimizə gələn ermənilərə hər cür dəstək verən də İran olub. Həmişə İranın yüksəkrütbəli hərbçilərindən təhdidlər eşitmişik. İranın "ruhaniləri" bir qayda olaraq ölkəmizdə dini ayrı-seçkilik salmaqla, fitnə-fəsad toxumu səpməklə mənəvi-dini terrorla məşğul olublar. İranın xüsusi xidmət orqanları daim ölkəmizdə "casus şəbəkəsi" yaradıb, topladığı kəşfiyyat materiallarını birbaşa Ermənistana ötürüblər. Bu, heç kimə sirr deyil.

### Azərbaycan vətəndaşlarının terrorçu dövlətə səfərləri tövsiyə olunmur

İran xüsusi xidmət orqanlarının "bir nömrəli" vəzifələri İrana gedən vətəndaşlarımızı müxtəlif yollarla aldadaraq və ya şantaj edərək casusluğa cəlb etməkdir. Azərbaycan hüquq mühafizə orqanlarının, DTX-nin belə casus şəbəkələrini zərərsizləşdirmələri barədə məlumatlara gündəlik rast gəlməkdəyik.

7

# İranın daha bir casus şəbəkəsi zərərsizləşdirildi

## Səfirliyimizdə həyata keçirilən silahlı terror indiyə kimi İranın ölkəmizə qarşı etdiyi mənəvi terrorun davamıdır

*Əvvəli 1-ci səh.*

Maraqlıdır, "din qardaşımız", "qonşumuz", "islamın hamisi və vəkili" casusları vasitəsi ilə topladığı hərbi və iqtisadi məlumatlardan nə məqsədlə, harada istifadə edir? Bu sualın yalnız bir cavabı var. Bu məlumatlar bizə düşmən olan ölkəyə, İranın siğə qardaşı Ermənistana ötürülür. İranın ölkəmizə qarşı əsl mövqeyini bilməyən az adam tapılar. Olduqca təəssüf doğuran məqam budur ki, bəzən İran xüsusi xidmət orqanları, yalnız "din xadimlərini", sadəcə "Hüseyn aşiqlərini" yox, cəmiyyətdə tanınan "ziyalıları", jurnalistləri, bütövlükdə bir saytı, bir televiziyanı da "ovlayaraq" öz mənfur niyyətini həyata keçirə bilirlər. Dünən yenə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən xüsusi əməliyyat tədbirləri nəticəsində Bakıda və respublikanın digər bölgələrində 7 nəfərdən ibarət İranın casus şəbəkəsinin zərərsizləşdirilməsi barədə məlumata rast gəldik. Yayılan məlumatda "İnterAz" telekanalının və "SalamNews" İA-nın adı çəkilir. Xatırladaq ki, kanalın sahibi Mətləb Bağırov əslən Cəlilabad rayonundandır. Onun İranda, Rusiyada və Azərbaycanda biznes obyektlərinin olduğu bildirilir.

"İnterAz" telekanalı ölkəmizdə daha çox İranın rəsmi şəxslərinin açıqlamalarını, bu ölkənin maraqlarına xidmət edən məlumatları, "Nardaran hadisələri"nə görə həbsdə olan Hacı Taleh Bağırzadə, Hacı Zülfüqar Mikayılzadə və İranla yaxınlığı ilə seçilən digər dindarlar haqqında geniş reklam xarakterli materiallar yaymaqla "məşhurdur". Vətəndaşlarımız İranın dövlətimizə qarşı məkrli niyyətini artıq anlamalı, bu ölkəyə hətta zəruri səfərləri zamanı olduqca diqqətli olmalıdırlar. Ən doğru variant isə İranın ölkəmizə qarşı qərəzli münasibətinə son qoyulmayınca bu ölkəyə səfər edilməməlidir. İranın ölkəmizə qarşı iyrənc münasibəti, necə deyərlər, bu günün, dünənin işi deyil.

İranın İslam İnqilabı Keşikçiləri Korpusunun əsgər və zabitlərinin Birinci Qarabağ savaşı zamanı Ermənistan ordusuna etdiyi yardım, ərazilərimiz işğal olunan zaman göstərdikləri "qəhrəmanlıqlar" haqqında kifayət qədər faktlar mövcuddur.

İran dünyada terrorçu dövlət kimi tanınır. Adını "İslam dövləti" qoyan İran, illərdir ki, din pərdəsi altında maskalanaraq müqəddəs dinimizi gözdən salmaqla məşğuldur. Rejim öz düşmənlərini, əleyhdarlarını hər gün edam edib, insan haqlarını pozmaqla, dindən siyasi alət kimi istifadə edib müqəddəs islam qanunlarına xəyanət etməklə məşhurdur. İran nəinki qonşu dövlətləri qorxu, təzyiq altında saxlamağa cəhd edir, hətta öz vətəndaşlarını belə qan gölündə boğmaqdan çəkinmir. İranın daxilində rejim əleyhinə davam edən son etirazlar nəticəsində 20 min insan həbs edilib, 1000 nəfərdən çox günahsız etirazçı öldürülüb. Rejim XXI əsrdə vətəndaşlarını qorxu altında saxlamaq məqsədilə insanları məhkəməsiz, dəlilsiz-sübutsuz bir mollanın "fətvası" ilə küçələrdə dar ağacından asır.

Əhalisinin yarıdan çoxunu azərbaycanlıların təşkil etdiyi İran ölkəmizin qazandığı uğurları, iqtisadi inkişafını, artan nüfuzunu heç cürə həzm edə bilmir. Belə demək mümkündürsə, demokratik, müstəqil Azərbaycanın uğurları İrana ağır dərd olub. İkinci Qarabağ müharibəsindəki qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından sonra İranın ölkəmizə olan münasibəti, əslində onun daxili qorxusunun, narahatçılığının ifadəsidir. İranı qorxudan Azərbaycanın artan nüfuzu, qüdrəti, gücüdür. Elə ona görə də əlinə fürsət düşdüyü bütün məqamlarda ölkəmizə qarşı məkrli addımlar atmağa çalışır.

Müharibə getdiyi dövrdə İran Ermənistana hərbi-siyasi yardım etdi, yüksəkrütbəli hərbçilərini, mütəxəssislərini, generallarını Ermənistana göndərərək köməyə hazır olduqlarını bildirdi. Azərbaycan Ordusu Zəngilan azad olunarkən qarşısında İran əsgərlərini gördü .

İran İslam Respublikası yarandığı gündən Azərbaycanla sərhədlərində heç vaxt hərbi təlim keçirməmişdi. Keçən ilin oktyabr ayında Azərbaycan sərhədində 50 minlik hərbi qüvvə cəmləyərək şərti adı "Arazı Keçək" olan təlimlərə start verdi. İran hərbçilərinin və siyasilərinin Azərbaycanı hədələmələri, təhdidləri gündəmi zəbt etdi. Ermənistan-Azərbaycan danışıqlarının pozulması, "sülh protokolunun" imzalanmaması üçün İran tam gücü ilə hərəkətə keçdi. Zəngəzur dəhlizinin açılmasını özünün "qırmızı xətti" elan edib, buna imkan verməyəcəyini açıqca bildirdi.

Bu azmış kimi, Ermənistana 600 ədəd tank əleyhinə idarə olunan raket kompleksi, eyni zamanda pilotsuz uçuş aparatları verdi. Hələ üstəlik ardınca da 27 vətəndaşını qanunsuz olaraq Azərbaycan ərazisinə keçirərək Xankəndiyə göndərdi. İranın hirsi, hikkəsi bununla da bitmədi. Belə ki, İrəvanla Tehran tez bir zamanda qardaşlaşdılar. Məscidlərimizi, dini ocaqlarımızı təhqir edən, donuz fermasına çevirən bir ölkənin baş nazirinin həyat yoldaşı ilə "cicibacı" olub, məscidlərə aparıb Azərbaycana öz aləmlərində nəyisə göstərmək istədilər. Bütün bunlar İranın ölkəmizə qarşı mənəvi-siyasi-hərbi terroru deyil, bəs nədir?

Səfirliyimizə olan xaincəsinə hücum isə İranın indiyə kimi dövlətimizə, xalqımıza qarşı etdiyi mənəvi terrorun birmənalı olaraq davamıdır. Dövlətimizin indiyə kimi İranın etdiklərinə dözümlülük göstərib, qonşuluq münasibətlərini pozmamaq xatirinə susması İran siyasilərini, demək olar ki, çaşdırdı. Bu dəfə İran ağılla, siyasətlə deyil, qəzəblə hərəkət edib Azərbaycanın beynəlxalq hüquqla qorunan suveren ərazisinə, səfirliyinə hücum təşkil etdi. İranın bu hərəkəti təkcə Azərbaycana qarşı yönəlmiş addım deyil. İran beynəlxalq hüquqa, dünya birliyinə bununla "dərs vermək" istədiyini nümayiş etdirdi. Dini rejimin niyyəti səfirlikdə qətliam törətmək idi. Diplomatları, ailə üzvlərini tamamilə qətlə yetirib hadisənin günahkarlarını Ermənistanda axtarmağa hesablamışdı. Vətənini, dövlətini, onun şərəfini canından çox sevən bir azərbaycanlı oğlunun - Vasif Tağıyevin qəhrəmanlığı İranın niyyətlərini tamamilə alt-üst etdi.

Terrorçunun bacarıqsızlığı, İranın xüsusi xidmət orqanlarının əməliyyatı düzgün həyata keçirə bilməmələri İranı indi çıxılmaz duruma salıb. İran düşdüyü çirkabdan çıxa bilmir. Fiaskoya uğrayan terror əməliyyatını əsli, əsası olmayan yalanla pərdələməyə, hazırladıqları qanlı terroru məişət hadisəsi kimi qiymətləndirməyə çalışır.

Azərbaycan dövləti güclü və qətiyyətlidir. Dövlətimizin başçısı hadisənin obyektiv araşdırılmasını, hadisəyə düzgün qiymət verilməsini tələb edir. Azərbaycan xalqı dövləti ilə, Prezidenti ilə həmrəydir. Səfirliyimizdə İranın xüsusi xidmət orqanlarının həyata keçirdikləri terror aktı müstəqilliyimizə, ərazilərimizə, dövlətimizə qəsd kimi qiymətləndirilir və buna görə İrandan cavab tələb olunur.

İran anlamalıdır ki, müstəqil Azərbaycan dövləti dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların vətənidir. Tehranda Azərbaycan səfirliyində İranın xüsusi xidmət orqanlarının həyata keçirdikləri terror hadisəsi dünya azərbaycanlılarının dövlətçilik hissinə, milli mənafeyinə tuşlanan güllədir. Çökməkdə olan molla rejimi bu qanlı hadisəni törətməklə sonunu daha da yaxınlaşdırdı.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 1 fevral.- S.1; 7.